“İQTİSADİ İSLAHATLAR”
elmi-analitik jurnal

# GƏLİRLƏR VƏ SOSİAL SİYASƏTİN TƏNZİMLƏNMƏSİNİN ELMİ-PRAKTİKİ MƏSƏLƏLƏRİ

№ 1(6)-2023, səh. 35-42

Vahid ABBASOV,
Bakı Dövlət Universiteti,
İqtisadiyyat kafedrasının müdiri,
iqtisad elmləri doktoru, professor

Seyran MİRCƏFƏROV,
Bakı Dövlət Universiteti,
İqtisadiyyat kafedrasının magistrantı

vahid.abbasov.56@mail.ru

# Gəlirlər və sosial siyasətin tənzimlənməsinin elmi-praktiki məsələləri

i.e.d., prof. Vahid ABBASOV,
Bakı Dövlət Universiteti,
İqtisadiyyat kafedrasının müdiri

Seyran MİRCƏFƏROV,
Bakı Dövlət Universiteti,
İqtisadiyyat kafedrasının magistrantı

**XÜLASƏ**

Məqalədə gəlirlər və sosial siyasətin tənzimlənməsinə dair normativ-hüquqi mənbələr və iqtisadi məktəblərin elmi-nəzəri yanaşmalarına istinadən iqtisadi tənzimlənmənin bazar və dövlət mexanizmlərindən istifadənin prioritetləri xülasə olunmuşdur. Əmək fəaliyyətlərindən əldə olunan gəlirlər arasında diferensiallaşma səviyyəsinin yaranma səbəbləri, işsizlik və məşğulluğa təsiri nəzərə alınaraq ölkəmizdə yoxsulluğun müəyyən edilməsi və gələcəkdə bu istiqamətdə praktiki addımlar atılması zərurətləri nəzərdən keçirilmişdir. Bu məqsədlə stabil iqtisadi artımın təmin edilməsində əsas göstəricilərdən biri olan əhalinin ümumi sayında yoxsul əhalinin xüsusi çəkisinin beynəlxalq təcrübədə müəyyənləşmiş həddən yuxarı olmamasına nail olmağın şərtləri və yolları müəyyənləşdirilmişdir.

***Açar sözlər**: gəlirlər, sosial siyasət, məşğulluq, yoxsulluq, tənzimləmə, sosial qruplar*

***JEL kodu:** B55; D31; H55*

## GİRİŞ

Milli iqtisadi təhlükəsizliyin və stabil iqtisadi artımın təmin edilməsində əsas hədəflərdən biri, əhalinin ümumi sayında yoxsul əhalinin xüsusi çəkisinin beynəlxalq təcrübədə müəyyənləşmiş həddən yuxarı olmamasına nail olmaqdan ibarətdir. Dövlətin həyata keçirdiyi xüsusi sosial tədbirlərin hazırlanması və həyata keçirilməsinin nəticəsidir ki, ölkədə təmsil olunan sosial qruplar üzrə yoxsulluğun səviyyəsinin aşağı salınması istiqamətində xeyli dərəcədə müsbət irəliləyişlərə nail olunmasına baxmayaraq, sosial ədalətliliyin təmin olunması istiqamətində hələ də görülməsi vacib olan məsələlər öz həllini gözləməkdədir.

Bütövlükdə dünya təsərrüfatçılığında və ayrı-ayrı ölkələrin milli iqtisadi sistemində vaxtaşırı baş verən tsiklik proseslər, resurslar bazarında qiymət dəyişiklikləri, elmi-texniki tərəqqinin sürətlənməsi nəticəsində innovativ proseslərin intensiv xarakter alması tələblə təklif arasında, gəlirlərlə xərclər arasında, əmtəə və pul bazarında, əmək bazarında makroiqtisadi tarazlıqların pozulmasına səbəb olur ki, bu da inflyasiya proseslərinə, işsizlik və məşğulluğa, müxtəlif sosial qrupların gəlirlərindəki balanslaşmanın pozulması ilə meydana çıxan təbəqələşməyə, yoxsulluğun artmasına, büdcə kəsirinin yaranması ilə müşaiyət olunan dövlət borclarının artması kimi məsələlərin meydana çıxmasına səbəb olmaqla mikroiktisadi, makroiqtisadi, mezoiqtisadi və meqoiqtisadi səviyyələrdə formalaşan gəlirlərin və sosial siyasətin iqtisadi tənzimlənmə məsələlərini aktuallaşdırır.

## GƏLİRLƏR VƏ SOSİAL SİYASƏTİN TƏNZİMLƏNMƏSİNİN MİLLİ İQTİSADİ SİSTEMDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ

Gəlirlər və sosial siyasətin tənzimlənməsi mikro, mezo və makro səviyyələrdə iqtisadi problemlərin öyrənilməsinin nisbətən gənc və yeni bir bölməsi olub, bütövlükdə ölkənin milli iqtisadi sisteminin mövcud vəziyyətinin tədqiqi və inkişaf meyilləri ilə müəyyən olunan mürəkkəb iqtisadi problemlərin əhatə dairəsini, milli və beynəlxalq səviyyələrdə qarşılıqlı yanaşma üsulları, habelə həlli vacib problemlərin aradan qaldırılması, bu məqsədlə bazar və

dövlət tənzimlənməsi mexanizmlərindən necə istifadə olunması barəsində müxtəlif fikirləri əhatə edir. Bu fikirləri bölüşən iqtisadçıların bir qrupu, əsasən də klassiklər və neoklassiklər makroiqtisadi səviyyədə hər bir ölkənin ən vacib iqtisadi resurslarla təmin olunma səviyyəsindən asılığını nəzərə almadan, dövlətin ölkənin təsərrüfat həyatına müdaxiləsinin əleyhinə çıxaraq bu siyasət nəticəsində milli təsərrüfatçılıq subyektlərinə gözlənilən müsbət dəyişikliklərdən çox, zərərli nəticələrə səbəb ola biləcəyi fikirlərini əsaslandırmağa çalışırlar (1). Başqa bir qrup, keynsçilər və neokeynsçilər isə əksinə, dövlətin makroiqtisadi bütövlükdə iqtisadiyyatın tarazlı inkişafının tənzimlənməsi prosesinə müsbət təsir göstərəcəyini irəli sürmüşlər. Eyni zamanda makroiqtisadi siyasət səviyyəsində dövlətin ölkənin təsərrüfat həyatının hansı problemləri ilə və hüdudlar daxilində məşğul olması məsələləri də ciddi mübahisələr doğurmuşdur. C.M.Keyns “iqtisadiyyatın dövlət tənzimlənməsi” konsepsiyasını irəli sürüb əsaslandırmışdı. İqtisadiyyatda baş verən yeni proseslər və perspektiv meyillərə dair keynsçi ideyalar onun “Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi” (1936) kitabında hərtərəfli təhlil olunmuşdur. O göstərirdi ki, daxili-xarici təsərrüfat əlaqələrinin mürəkkəbləşdiyi bir şəraitdə sərbəst bazar vasitəsilə məşğulluq, maliyyə resurslarından səmərəli istifadə, iqtisadiyyatın dinamik inkişafını təmin etmək mümkün deyildir. Ona görə də iqtisadiyyatda bazar münasibətləri prinsiplərini saxlamaqla yanaşı, bu münasibətlər sistemini hökmən tənzimləmək lazımdır. Bu mənada C.Keynsin iqtisadi təlimi dövlət tənzimlənməsi sisteminə əsaslanan makroiqtisadi nəzəriyyədir ki, 1929-1933-cü illərdə yaranmış iqtisadi böhrandan çıxış yollarına dair arqumentləşdirilmiş fikirlər geniş yer almışdır.(3).

Mikroiqtisadi və makroiqtisadi səviyyələrdə inkişaf etməkdə olan kooperasiyalaşma və inteqrasiyalaşma prosesləri müasir mərhələdə daha intensiv xarakter alaraq planetar miqyasda qloballaşma proseslərini ön plana çəkərək təbii resurslarla zəif təmin olunmuş milli iqtisadi sistemlərə təsirdə adekvat olmayan iqtisadi güclərə çevrilmiş, müxtəlif coğrafi məkanlarda liberal dəyərlərə əsaslanan bazar iqtisadiyyatı prinsiplərinin reallaşmasına mane olmaqla, ayrı-ayrılıqda müstəqil iqtisadi siyasət aparmağa çalışan ölkələrdə milli maraqların təmin olunmasında sosial-iqtisadi problemləri dərinləşdirmişdir. Gəlirlərin bölgüsündə, işsizlik və yoxsulluğun azaldılmasında və məşğulluğun artırılmasında ikitərəfli iqtisadi münasibətlərdə yaranmış ziddiyyətli proseslərin dövlət tərəfindən tənzimlənməsi, fərdi təsərrüfat subyektlərinin operativ idarə olunmasındakı məqsədlərindən irəli gələrək real şəraitlərə uyğunlaşmanı tələb edir.

Bütün bu qeyd olunan problemlər həm mikroiqtisadi, həm də makroiqtisadi səviyyələrdə yaranan gəlirlərin ümumi səviyyəsinə, bu gəlirləri formalaşdıran qiymət və qeyri-qiymət amillərinin təsir mexanizmlərinin standartlaşdırılmasını ardıcıllıqla müəyyən olunmuş qaydalarla tənzimlənməsində imkan və bacarıqların səfərbər olunmasını zəruriləşdirir. Hər şeydən əvvəl ümumi daxili məhsulun tərkibini formalaşdıran gəlirlərin həcmi və bu gəlirlərdə mühüm rol oynayan qiymətlərin dəyişkənliyi səviyyəsi nəzərdən keçirilməsini tələb edir. Nəzərdə tutulan ümumiləşdirici iqtisadi göstəricilərin öyrənilməsi milli gəlirin artırılması şərtlərinə uyğun olaraq milli gəlirin istehlak və yığım fondlarına yönəldilməsinin optimal variantlarını müəyyənləşdirməsi ilə yanaşı, digər makroiqtisadi göstəricilərlə əhalinin həyat səviyyəsini müəyyən edən müxtəlif növ gəlirləri arasındakı qarşılıqlı əlaqəni müəyyən etməklə yanaşı, dövlət tənzimlənməsini həyata keçirməyə imkan verən təsiredici amillərin hərtərəfli təhlil olunmasına şərait yarada bilər.

Əmək bazarında müxtəlif əmək fəaliyyətlərindən əldə olunan əmək gəlirləri arasında diferensiallaşma səviyyəsinin yüksək olması ilə meydana çıxan makroiqtisadi qeyri-sabitlik şəraitində işsizlik problemləri kəskinləşərək tənzimləmə proseslərini zəruriləşdirməklə qeyri-sabitliyi doğuran obyektiv və subyektiv xarakterli amillərin səfərbər edilməsinə, işsizliyin müxtəlif formalarına səbəb olan sosial-iqtisadi nəticələrin tənzimlənməsinə, habelə əhalinin məşğulluğunun artırılması sayəsində gəlirlərin sabitliyinin təmin edilməsi siyasətinə dair tədbirlərin həyata keçirilməsinə zərurət yaranmaqdadır.

Milli iqtisadiyyatın makroiqtisadi təhlilində gəlirlər və xərclər arasında kəmiyyət

dəyişikliklərini məcmu tələblə məcmu təklif səviyyəsində öyrənərkən, çoxamilli proseslərin mahiyyəti açıqlanmalı, istehsalın və istehlakın həcmi, qiymətlərin səviyyəsində baş verən dəyişikliklərin ətraflı izah edilməsi üçün qrafik təsvirlərin verilməsi, müqayisəli təhlillərin aparılması ilə müşaiyət olunan tədqiqat üsullarından ardıcıllıqla və sistemli şəkildə istifadə olunması məqsədə uyğun hesab edilə bilər. Bu təhlillər büdcə gəlirlərini formalaşdıran vergi ödəmələri nəticəsində ölkədə fiskal siyasətin iqtisadi və hüquqi bazasını müəyyən edərək, bankların pul-kredit siyasətinin, büdcənin gəlir və xərclərinin balanslaşdırılmasının, vergilər və gömrük mexanizmləri sistemindən yararlanaraq dövlətin daxili və xarici borclarının, habelə bununla bağlı problemlərin həlli yollarının sistemli həllinə yönəldilməklə tamamlanır.

Milli iqtisadiyyatın artım tempinə təsir edən amillər, iqtisadi artımın forma və tipləri, gəlirlər və əhalinin həyat səviyyəsi, beynəlxalq valyuta münasibətləri, iqtisadi inteqrasiya və müasir qloballaşma prosesləri yaranmış konkret şəraitlərdən asılı olaraq milli maraqlara uyğun şəkildə tənzimlənir.

## BAZAR İQTİSADİYYATINDA SOSİAL SİYASƏTİN MAHİYYƏTİ VƏ VƏZİFƏLƏRİ

Bir sıra obyektiv və subyektiv səbəblərdən bazar iqtisadiyyatı sistemi gəlirlərin səmərəli bölüşdürülməsi və əhalinin sosial problemlərini səmərəli həll edilməsi istiqamətindəki tədbirləri həyata keçirməyə qadir deyil. Müxtəlif bazar iqtisadiyyatı modellərinə malik olan ölkələrdə sosial-iqtisadi problemlərin həlli dövlət qurumlarının iştirakı ilə həyata keçirilsə də, sosial və liberal yönümlü bazar iqtisadiyyatı modellərinə aid olan ölkələrdə tənzimlənmənin intensivləşmə dərəcəsi və mexanizmləri bir-birlərindən fərqlənirlər. Bir əsas reallıq ondan ibarətdir ki, bütün ölkələrdə dövlətin mühüm tənzimləyici və bölüşdürücü funksiyalarından istifadə edərək səmərəli sosial siyasətin reallaşdırılmasına nail olmaqla bağlıdır. Sosial siyasət dövlətin ümumi iqtisadi siyasətinin tərkib hissəsi olmaqla ilk növbədə aşağıdakı bir sıra taktiki və strateji məsələlərin operativ həllinə mümkün qədər operativ müdaxilə etmək və praktiki baxımdan yardımların göstərilməsinə yönəldilməsidir:

- ayrı-ayrı iqtisadi rayonlar üzrə əhalinin sosial cəhətdən zəif təbəqəsini müəyyənləşdirmək üçün müxtəlif fəaliyyət sahələri üzrə orta aylıq əmək haqqı və natural gəlirlərin məbləğini müəyyənləşdirmək;
- minimum əmək haqqı, yaşayış minimumu, təqaüdün minimum səviyyəsi və s. sosial standartların təmin olunma səviyyəsini müəyyənləşdirmək əsasında onlara müvafiq imtiyazların tətbiqi zəruriliyini;
- işsizliyin aradan qaldırılması və məşğulluğun artırılmasına şərait yaratmaq;
- əhalinin ödənişli iqtisadi fəaliyyətlərə cəlb etmək və özünüməşğulluqla bağlı sosial xidmətlərlə təmin edilməsinə şərait yaratmaq;
- sosial infrasturuktur sahələrinin dövlət və bazar mexanizmləri əsasında maliyyələşdirilməsi və inkişaf etdirilməsi məsələlərinə himayədarlıq siyasəti aparmaq və s.

Müstəqillik əldə etdiyimiz ilk dövrlərdən başlayaraq ölkəmizdə yoxsulluğun müəyyən edilməsi və gələcəkdə bu istiqamətdə praktiki addımlar atılması məqsədilə 1992-ci ildə "Minimal istehlak büdcəsi haqqında" qanun qəbul edilmişdir. Qanunda minimum istehlak büdcəsinin dəyəri aztəminatlılığın, yaxud yoxsulluğun həddini müəyyən edən əsas göstərici kimi qeyd olunmuşdur (6). O dövrdə keçid iqtisadiyyatının dərin böhranlı xarakterə malik olması, xarici bazarlardan tam asılılıq şəraitində fəaliyyət göstərməsi, idarəetmənin institusional strukturlarının yenicə formalaşması ilə lazımi təcrübəyə malik olmadığı dövrə təsadüf etməsi, ölkə üzrə inflyasiya səviyyəsinin yüksək olması ölkədə mövcud olan statistik məlumatlar bazasından lazımınca yararlanmağa imkan yaratmadığından bu qanunun icra olunmağa başladığı dövrdən bəri sosial vəziyyətin obyektiv qiymətləndirilməsini düzgün əks etdirmirdi. Ölkə üzrə minimum istehlak büdcəsinin məbləği ilə orta əmək haqqı səviyyəsi arasında müəyyən uyğunsuzluqlar müşahidə olunurdu (7). İqtisadiyyatın hiper inflyasiyaya məruz qalması əhalinin böyük hissəsinin yoxsulluq səviyyəsində yaşamasını daha da dərinləşdirməklə davam etdiyindən çıxış yolu kimi əlavə sosial yardım paketlərinin tətbiq edilməsinə baxmayaraq, ölkə

üzrə sosial-iqtisadi vəziyyət ümumən heç də ürəkaçan deyildi. Belə ki, 1995-ci ildə Dünya Bankı tərəfindən Azərbaycanda ev təsərrüfatlarının müayinəsi keçirmiş və yoxsulluq səviyyəsinin 61,5% olaraq qiymətləndirilmişdir, o cümlədən bu ststistikada ən yoxsul əhalinin xüsusi çəkisi isə 20,5% həcmində qiymətləndirilmişdir.

Gəlirlər və sosial siyasətin tənzimlənməsinin önəmi nəzərə alınaraq 2004-cü ildə "Azərbaycanda Avropa Sosial Xartiyasının təsdiq edilməsi barədə" qanun qəbul edilmişdir. Bu qanunun qəbul edilməsi digər ölkələrlə bərabər, ölkəmizin dövlət və digər ictimai qurumları qarşısında müxtəlif öhdəliklərlə yanaşı, bu xartiyanın birinci hissəsində sosial siyasətin həyata keçirilməsində əsas hüquq və təşkilati-iqtisadi prinsiplərə dair mülahizələrə də xüsusi yer verilmişdir (4). Bu hüquq və təşkilati-iqtisadi prinsipləri əks etdirən mülahizələr arasında hər bir insanın məruz qaldığı yoxsulluq və sosial gərginliklərdən müdafiə olunmasna dair hüquqi və praktiki mülahizələr də öz əksini tapmışdır. Qəbul olunmuş bu xartiyaya uyğun olaraq, ölkəmizdə 2000-ci illərin ortalarından başlayaraq yoxsulluq ilə mübarizəyə dair müxtəlif sosial müdafiə tədbirləri həyata keçirməyə başlamış və bu tədbirlərin baş vermə şəraitlərindən asılı olaraq əsas hədəflərə nail olmaq istiqamətləri və məqsədləri davamlı olaraq inkişaf etdirilməkdədir.

Daha sonra isə 2021-ci ildə Prezident İlham Əliyevin müvafiq əmri ilə "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər"in təsdiq olunması haqqında fərman imzalanmışdır. Qeyd olunan bu sənəddə dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması üçün məqsədlər və vəzifələr müəyyənləşdirilmişdir. Sənəddə qeyd olunan məqsədlərdən biri yüksək və ədalətli sosial təminatın həyata keçirilməsinə imkan yaradan məsələləri özündə əks etdirən cəmiyyətin qurulması şərtləri göstərilmişdir. Bu məqsədlərə nail olunma çərçivəsində isə ölkədə yoxsul əhalinin cəmi əhaliyə nisbətdə xüsusi çəkisi ilə müəyyən olunan yoxsulluq səviyyəsinin minimuma endirilməsi və aşağı işsizlik səviyyəsi, eləcə də yoxsul əhali təbəqəsinin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardımların əhatə dairəsinin genişləndirilməsi ölkədə vətəndaşların sosial müdafiəsinə əlavə imkanlar yaradacaqdır. Bir sözlə, 2030-cu ilə kimi dövlət və hökumətin müvafiq strukturları tərəfindən yoxsulluğun minimuma endirilməsinə dair bir sıra digər tədbirlər də planlaşdırılmışdır(5).

Gəlirlər və sosial siyasətin tənzimlənməsi istiqamətində həyata keçirilən əməli tədbirlər sayəsində 2000-ci illərin əvvəlindən başlayaraq yoxsulluq səviyyəsindəki vəziyyət tamamilə müsbətə doğru dəyişməyə başlamışdır. Bu istiqamətdə müsbət dəyişiklərin meydana gəlməsində mühüm rol oynayan hüquqi təsisatlardan biri də 2003-cu ilin fevralında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramının qəbul edilməsi ilə əlaqədar görülən tədbirlər sayəsində müşahidə olunur (8). Proqramın hazırlanmasında Dövlət Statistika Komitəsi tərəfindən ev təsərrüfatlarının müayinəsinə dair hazırladığı analitik materiallara və qiymətləndirmə sənədlərinə istinad edilməsi geniş ictimai dəstəyə yol açmışdır.

**Qrafik 1. Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda yoxsulluq səviyyəsi (9)**



Uzun müddətdir ki, sosial islahatlar sayəsində həyata keçirilən tədbirlər sırasında məhz yoxsulluqla mübarizəyə xüsusi diqqət göstərildiyinin nəticəsidir ki, son 20 il ərzində yoxsulluq əhəmiyyətli dərəcədə azalaraq 49%-dən 6,2%-ə qədər,yaxud da 9,2 dəfəyə qədər azalmışdır. Yoxsulluq səviyyəsinin azalması 2001-2010-cu illərdə 9,1%-ə qədər, sonrakı illər ərzində isə 7,6 - 6,2 % civarında stabilləşməyə başlamışdır(Şəkil 1).

Dövlətin gəlirlər və sosial siyasətlə bağlı fəaliyyətində əsas məqsəd müxtəlif səviyyələrdə əldə olunan gəlirləri daima artırmaqla, əhalinin ümumi həyat səviyyəsini yüksəltməklə yanaşı, fərqli fəaliyyətlərlə məşğul olan əhali qrupları arasında mövcud olan gəlir fərqlərini nizamlamaqdan ibarətdir. Əhali qrupları arasında gəlirlərin fərqliliyindən yaranan sosial qruplar, mövcud iqtisadi ədəbiyyatlarda və təcrübədə rast gəlindiyi kimi yoxsul, kasıb, orta və tam təmin edilmiş dörd müxtəlif qruplara bölünərək sosial yardıma ehtiyacı olanların üzə çıxarılmasının ünvanlı və kateqoriyalı yanaşma kimi iki prinsipi qeyd olunur(11).

**Qrafik 2. Ev təsərrüfatlarında hər nəfərə düşən aylıq gəlirlər, manat (12)**




Ev təsərrüfatlarında hər nəfərə düşən aylıq gəlirlərin miqdarına dair rəsmi statistik məlumatların təhlilindən göründüyü kimi, 2001-2021-ci illər ərzində cəmi gəlirlər 10,3 dəfə artdığı halda, pensiyalar üzrə əhalinin fərdi gəlirləri 22,5 dəfə, özünüməşğulluqdan əldə olunan gəlirlər 9,3 dəfə artdığı halda, əhalinin digər gəlirlərinin həcmi 15,4 dəfəyə qədər artmışdır. Muzdlu işlərlə əlaqədar əldə olunan gəlirlərin həcmi isə özünüməşğulluqdan əldə olunan gəlirlərlə eyni artım tempinə malik olub 9,3 dəfə artmışdır. Bütövlükdə ev təsərrüfatlarında çalışan əhalinin hər nəfərinə düşən gəlirlərin həcmində muzdlu işlərlə əlaqədar əldə olunan gəlirlərin həcmi 36,1%, özünüməşğulluqdan əldə olunan gəlirlərin həcmi 33,6%, pensiyalar üzrə əhalinin fərdi gəlirlərinin həcmi isə 17,2% təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən gəlirlərin həcmində müavinət və sosial yardımlar cəmi 2,9% təşkil etmişdir ki, bu da 2001-ci illə müqayisədə 17,6 dəfə artmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər özünüməşğulluqdan əldə olunan gəlirlərin həcmində 33,7%, cəmi aylıq gəlirlərdə isə 11,3% təşkil etmişdir ki, bu da digər gəlirlərin həcmi ilə müqayisədə xeyli aşağıdır.

Aztəminatlılığın qarşısının alınmasında ortaya çıxan sosial problemlərin nisbətən ədalətli həll edilməsi üçün dövlət tərəfindən ilk növbədə hər sosial qrupa aid olan əhalinin sayının, demoqrafiya və miqrasiyasına nəzarətin həyata keçirilməsi, sosial infrastruktur və xidmət sahələrinin inkişaf etdirilməsində ödənişsiz limitlərin təyin edilməsi, minimal sosial standartların səviyyələrinə mütəmadi olaraq yenidən baxılması, sosial problemləri həll etmək üçün müvafiq dövlət proqramlarının hazırlanması, sosial siyasəti reallaşdırmaq və ona nəzarəti təmin etmək üçün idarəetmə orqanlarının yaradılması kimi vəzifələrin müəyyənləşdirilməsi və həyata keçirilməsi zəruri sayıla bilər. Aztəminatlılığın qarşısının alınması və fərdi subyektlərin qarşılıqlı fəaliyyətinə nail olması iqtisadi fəaliyyətdə potensial bacarıqların, səriştələrin və

imkanların reallaşdırılmasının optimal səviyyəsinə yönəldilmiş proseslərin əhatə olunmasından ibarətdir.

## NƏTİCƏ

Bazar iqtisadiyyatı şəratində əhalinin gəlir mənbələrinin çoxluğunu nəzərə alaraq yoxsul əhali qruplarına sosial yardımın göstərilməsi barədə məsələlərin həlli zamanı ünvanlı yanaşma prinsiplərinə üstünlük verilməsi məqsədəuyğun hesab olunur. Bu zaman sosial yardımların ayrılmasına müraciət edən subyektlərin real gəlirlərinin və maliyyə aktivlərinin nəzərə alınması mümkün olur ki, burada da xüsusi diqqət yetirilməsi məsələlərdən biri məşğulluq səviyyəsinin artırılması ilə bağlıdır. Qeyd olunanları ümumiləşdirərək belə qənatə gəlmək olar ki, bir sıra obyektiv və subyektiv səbəblər üzündən ev təsərrüfatlarında kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı fəaliyyətlərdə məşğulluq səviyyəsi aşağı səviyədədir. Məşğulluq səviyyəsinin artırılması məqsədi ilə sosial yönümlü maliyyə vəsaitlərinin birdəfəlik yardımlar formasında deyil, mikro sahibkarlıq fəaliyyətlərinin investisiyalaşdırılması layihələrinə çevrilməsinə nail olunsun.

## ƏDƏBİYYAT

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 2021. http://www.e-qanun.az/framework/46813
2. C.M.Keyns, Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi, elektron versiya, 1986. https://az.wikipedia.org/wiki/M%C9%99%C5%9F%C4%9Fullu%C4%9Fun,_faizin_v%C9%99_pulun_%C3%BCmumi_n%C9%99z%C9%99riyy%C9%99si
3. https://economic-definition.com/Scientists_and_economists_theorists/Dzhon_Meynard_Keyns_John_Maynard_Keynes__eto.html
4. Avropa Sosial Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu. 2004. http://www.e-qanun.az/framework/5409
5. Qüdrət Əbdülsəlimzadə, İqtisadiyyata giriş, Bakı, 2015, səh. 27
6. Minimum istehlak büdcəsi haqqında Azərbaycan Respublikasının qanunu. 1992. http://www.e-qanun.az/framework/7802
7. Mammadova A. Azərbaycanda yoxsulluğa səbəb olan amillər və onların aradan qaldırılması yolları. İyun 2020. https://papers.ssrn.com/sol3/ papers.cfm?abstract_id=3607123
8. "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Prezident fərmanı, 2003. http://www.e-qanun.az/ framework/ 1954
9. https://bakuresearchinstitute.org/the-poor-and-unemployed-in-azerbaijan/
10. S. Cabbarova, Dövlətin sosial siyasəti və əmək potensialından səmərəli istifadəsi https://ndu.edu.az/wp-content/uploads/Elmi%20Eserler/79% 20ictimai%202016.pdf
11. F. Rəhmanov, Sosial sfera və sosial siyasət, Dərs vəsaiti, Bakı- 2021, səh.204
12. Dövlət Statistika Komitəsi, 2022,Ev təsərrüfatlarında hər nəfərə düşən aylıq gəlirlər https://www.stat.gov.az/source/budget_households/

## SCIENTIFIC-PRACTICAL ISSUES OF REGULATION OF SOCIAL POLICY AND INCOME

Vahid ABBASOV,
Seyran MIRJAFAROV

**SUMMARY**

The article summarizes the priorities of using market and state mechanisms of economic regulation with the involvement of legal sources and scientific and theoretical approaches of economic schools on issues of income regulation and social policy. The reasons for the emergence of the level of differentiation of incomes received from labor activity that affect unemployment and employment are considered, the need to determine poverty in our country and take practical steps in this direction in the future is considered. To do this, the conditions and ways to ensure that the proportion of the poor in the total population, which is one of the main indicators of ensuring sustainable economic growth, does not exceed a certain limit established in international practice are determined.

***Keywords***: *income, social policy, employment, poverty, regulation, social groups.*

## НАУЧНО-ПРАКТИЧЕСКИЕ ВОПРОСЫ РЕГУЛИРОВАНИЯ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ И ДОХОДОВ

Вахид АББАСОВ,
Сейран МИРДЖАФАРОВ

**РЕЗЮМЕ**

В статье обобщены приоритеты использования рыночных и государственных механизмов экономического регулирования с привлечением нормативно-правовых источников и научно-теоретических подходов экономических школ по вопросам регулирования доходов и социальной политики. Рассмотрены причины возникновения уровня дифференциации доходов, получаемых от трудовой деятельности, влияющих на безработицу и занятость, рассмотрена необходимость определения бедности в нашей стране и принятия практических шагов в этом направлении в будущем. Для этого определены условия и пути достижения того, чтобы удельный вес бедного населения в общей численности населения, являющийся одним из основных показателей обеспечения устойчивого экономического роста, не превышал установленного в международной практике определенного предела.

***Ключевые слова***: *доход, социальная политика, занятость, бедность, регулирование, социальные группы.*

Məqalə redaksiyaya daxil olub: 01.03.2023
Çapa qəbul olunub:17.04.2023